

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 107 (24.244)

*15 iyun 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev 15 İyun – Milli Qurtuluş Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tviter hesabında paylaşım edib.

## Prezident İlham Əliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib.

Dövlətimizin başçısı Türkiyədə keçirilən seçkilərdə Rəcəb Tayyib Ərdoğanın, həmçinin Cümhur İttifaqının qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Rəcəb Tayyib Ərdoğanın Türkiyə Prezidenti seçildikdən sonra ilk səfərini Azərbaycana etməsinin və bunun dövlət səfəri statusunda həyata keçirilməsinin önəmi vurğulandı, həmişə olduğu kimi, bu səfərin də çox səmərəli keçdiyi bildirildi. Qeyd edildi ki, səfər zamanı dövlət başçıları tərəfindən Azərbaycan-Türkiyə müttəfiqliyinin müxtəlif sahələr və istiqamətlər üzrə inkişafına dair aidiyyəti nazirliklərə işlərin ardıcıl surətdə aparılması ilə bağlı tapşırıqlar verilib. Vurğulandı ki, Türkiyənin dövlət başçısının bu səfəri ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və dostluq əlaqələrinin möhkəmlənməsi işinə böyük töhfə verəcək.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinin əhəmiyyətinə toxunuldu, Binəli Yıldırımın Ağsaqqallar Şurasının sədri kimi təşkilat çərçivəsində fəaliyyəti vurğulandı.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə şirkətlərinin fəaliyyəti qeyd edildi.

Təbriklərə görə minnətdarlığını bildirən Binəli Yıldırım Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizə dövlət səfərinin uğurlu olduğunu qeyd etdi. Binəli Yıldırım Azərbaycanda olduğu müddətdə nümayəndə heyəti ilə birlikdə Şuşaya gedəcəyini və orada aparılan genişmiqyaslı tikinti-quruculuq işləri ilə yerində tanış olacağını bildirdi. O, Ağsaqqallar Şurasının sədri kimi Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinə öz töhfəsini verəcəyini vurğuladı.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla qeyd edildi.

**AZƏRTAC**

## Naxçıvanda STEAM Təlim-Tədris Mərkəzinin açılışı olub



İyunun 14-də Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib. Qonaqlar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər. Sonra qonaqlar muzeyin eksponatları ilə tanış olublar.




Səfər çərçivəsində qonaqlar Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə keçirilən Məzun günündə iştirak ediblər. Məzun günündə elm və təhsil naziri Emin Əmrullayev və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək məzunları təbrik edib, onlarla xatirə fotosu çəkdiriblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov və qonaqların iştirakı ilə Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzinin açılışı olub. Bildirilib ki, STEAM Təlim-Tədris Mərkəzi Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə həyata keçirilən "STEAM Azərbaycan" layihəsinin əsasında yaradılıb.

Məlumat verilib ki, STEAM Təlim-Tədris Mərkəzi 236 yerlikdir. Mərkəz zirzəmi ilə birgə 3 mərtəbədən ibarətdir. Burada STEAM, robototexnika, CNC-3D texnologiyası, qrafiki dizayn, elektronik proqramlama-mühəndislik,




dron uçuş idarəçiliyi və kodlaşdırılması, proqramlaşdırma dərnəkləri fəaliyyət göstərəcək. Mərkəzlə tanışlıq zamanı STEAM Azərbaycan Festivalından bəhs edən nazir Emin Əmrullayev Naxçıvan məktəblilərinin festivalda fəal iştirak etdiyini vurğulayıb.

Sonra Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin müəllim və tələbələrinin 15 İyun – Milli Qurtuluş Gününə həsr edilən rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.



Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Məzun günündə iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan Dövlət Universitetinin böyük perspektivi olduğunu vurğulayıb, gələcək həkimlərimizə müvəffəqiyyətlər arzulayıblar.

Tibb fakültəsinin 1999-cu ildə məhz Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə yaradıldığını bildirən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bu fakültənin ölkəmizdə paytaxtdan kənarda yeganə fakültə olduğunu qeyd edib.

Məzun günü bədii hissə ilə davam edib. Sonra Tibb fakültəsinin məzunları and içiblər. Məzunlara rəmzi keçici diplomlar təqdim olunub.

**"Şərq qapısı"**

# Naxçıvanda Milli Qurtuluş Günü münasibətilə konsert təşkil olunub






İyunun 14-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Filarmoniyasının Birləşmiş Orkestri 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı ilə çıxış edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, dövlət və hökumət nümayəndələri konsertdə iştirak edib.

Konsertdən əvvəl Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri barədə məruzə edib.

Qeyd olunub ki, Milli Qurtuluşumuzun 30 ili tamam olur. Son 30 ildə Ümummilli Lider tərəfindən qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir, Azərbaycan daha da inkişaf edir. Ulu Öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət bu gün Onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə ərazi bütövlüyümüzün təmin olunması Ulu Öndər Heydər Əliyev strategiyasının uğurlu nəticəsidir.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Birləşmiş Orkestrinin konserti olub.

**"Şərq qapısı"**

# Naxçıvanda ümumi və ali təhsil, elmin inkişafı ilə bağlı bir sıra məqsədyönlü tədbirlər həyata keçiriləcək

*Naxçıvan Muxtar Respublikasında ikigünlük səfərdə olan Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev "Şərq qapısı" qəzetinə müsahibəsi zamanı bu barədə məlumat verib:* – Naxçıvanda olmaqdan çox məmnunam.




Bilirsiniz ki, bu il Azərbaycanda "Heydər Əliyev ili"dir. Məhz bu səbəbdən Məzun gününü Naxçıvanda, buradan məzun olan şagirdlərimizlə keçirmək qərarına gəldik. Ümumiyyətlə, bu gün Azərbaycanda 98 mindən artıq şagird XI sinfi, 145 mindən artıq şagird isə IX sinfi bitirir. Fürsətdən istifadə edib elə sizin vasitənizlə onları təbrik etmək istəyirəm. Düşünürəm ki, məzun olmaq, bu adı daşımaq hər bir insanın həyatında olduqca vacib hadisələrdəndir. Elə bu səbəbdən Naxçıvan şəhərində dahi siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin adını daşıyan məktəbdə məzunların tədbirinə qatıldıq, ümumilikdə, çox müsbət və xoş təəssürat qazandıq. Bununla yanaşı, diqqətinizə çatdırım ki, Naxçıvan təhsildə həmişə özünün müsbət nəticələri ilə seçilən bölgələrdəndir. Bu mənada, inanıram ki, builki məzunlar yaxşı nəticə göstərəcəklər.

Emin Əmrullayev səfər çərçivəsi barədə öz təəssüratlarını bölüşüb: – Əlavə olaraq STEAM Mərkəzi ilə də tanış olduq, bu təlim-tədris obyektinin açılış tədbirində iştirak etdik. STEAM Mərkəzi hazırda muxtar respublikada yaradılmış ən innovativ məkanlardan biridir. Ümumiyyətlə, Azərbaycanda 30-a yaxın mərkəz var, deyə bilərəm ki, bu mərkəz yaradılmış şəraitə görə digərlərindən tamamilə seçilir. Düşünürəm ki, növbəti mərhələlərdə Elm və Təhsil Nazirliyi tərəfindən də göstəriləcək dəstək nəticəsində mərkəzdə şagirdlərimiz üçün müvafiq öyrənmə mühiti yaradılacaq. Əlavə olaraq səfər çərçivəsində Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti, tələbələri ilə görüşdük, eyni zamanda Naxçıvanda fəaliyyət göstərən digər müəssisələrlə tanış olduq. Bu səfər çərçivəsində Naxçıvanda ümumi və ali təhsil, elmin inkişafı ilə bağlı muxtar respublikanın müvafiq qurumları ilə birlikdə daha çox nə edə bilərik, bu barədə müvafiq birgə planımız olacaq. Növbəti tədris ilində artıq bu planları icra etməyə başlayacağıq.

Bu ilin növbəti aylarında tarixi əhəmiyyət daşıyacaq məktəb açılışlarımız olacaq. Şuşa, Füzuli, Laçın şəhərlərində məktəblərin açılışı nəzərdə tutulur, eyni zamanda Sus və Zabux kəndlərində də məktəblər istifadəyə veriləcək. Digər bölgələrdə – Zəngilan, Qubadlı, Kəlbəcər şəhərlərində artıq bu proses başlayıb, Ağdam şəhərində bitmək üzrədir. Füzuli şəhərində də peşə-təhsil müəssisəsi tikilib, Cəbrayılda məktəb tikintisi artıq başlayıb. İnanıram ki, növbəti illərdə biz artıq işğaldan azad olunmuş ərazilərdə məktəblərimizə şagird və müəllimləri qaytara biləcəyik.

**✍ Məcid RƏŞADƏTOĞLU**

# Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə "15 İyun – Milli Qurtuluş Günü" mövzusunda elmi konfrans keçirilib.*

Bölmənin sədri, akademik İsmayıl Hacıyev 1993-cü il 15 iyun tarixinin mahiyyəti, həmin tarixi günün dövlət müstəqilliyimizin, dövlətçiliyimizin qorunub saxlanmasındakı rolundan danışıb, 90-cı illərin əvvəllərində ölkədə hökm sürən vəziyyətdən, xaos və qarşıdurmalarla müşayiət olunan hakimiyyət böhranından, güclənən separatizm meyillərindən, habelə vətəndaş müharibəsinin astanasında olan xalqın acınacaqlı durumundan söz açıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə 15 iyun tarixi Milli Qurtuluşumuzun başlanğıcı olmuşdur.

Akademik bildirib ki, Ümummilli Lider vəzifəsinin icrasına başladığı ilk gündən etibarən dövlət nümayəndələri, elm adamları ilə görüşlər keçirmiş, Azərbaycanın gələcək rifahına yönəlmiş məqsədyönlü addımlar atmışdır. Ulu Öndərin rəhbərliyi ilə beynəlxalq təşkilatlarla əməkdaşlığın yaradılması, balanslaşdırılmış siyasətin yürüdülməsi, müxtəlif sahələrdə əsaslı islahatların həyata keçirilməsi və başqa amillər ölkəni düşdüyü acınacaqlı vəziyyətdən xilas etməklə bərabər, yeni inkişaf dövrünün bünövrəsi olmuşdur.

Çıxışının sonunda İsmayıl Hacıyev kollektiv üzvlərini Milli Qurtuluş Günü münasibətilə təbrik edib.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov "Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü (1990-1993-cü illər)", Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev "15 İyun – Azərbaycan dövlətçiliyinin xilası günüdür", Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov "Böyük Qayıdışdan inkişafa aparan lider", Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda məruzələr ediblər.

***

Naxçıvan Dövlət Universitetində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev tədbirdə çıxış edərək tarixə qızıl hərflərlə yazılan əlamətdar günün Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıb. Bildirilib ki, 1997-ci ildən təqvimdə mühüm tarix kimi qeyd olunan bu gün Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynayıb. Vurğulanıb ki, Qarabağın taleyini həll edən 44 günlük Vətən müharibəsində mühüm rol oynayan diplomatik strategiyanın təməli də məhz Heydər Əliyevin hakimiyyət illərində qoyulub. Prorektor Ulu Öndərin hakimiyyətə gəlişindən sonra ölkədə müstəqil dövlət quruculuğu istiqamətində qazanılan mühüm uğurlardan bəhs edib, muxtar respublikanın inkişafı istiqamətində atılan əhəmiyyətli addımlardan danışıb. Arzu Abdullayev bayram münasibətilə gənclərə müstəqil dövlətin vətəndaşları olaraq hər kəsin üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyi tövsiyə edərək tədbir iştirakçılarını təbrik edib.




Universitetin Azərbaycan tarixi kafedrasının müəllimi Nuray Hacıyeva "Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilası günüdür" mövzusunda çıxış edib.

Tədbirin bədii hissəsində bədii rəhbəri Sərxan Abdullayev olan "Buta" instrumental ansamblının konsert proqramı nümayiş olunub.

***

"Naxçıvan" Universitetində 15 İyun – Milli Qurtuluş Günü ilə bağlı Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı ilə birgə "15 İyun müasir tariximizin dönüş mərhələsidir" mövzusunda konfrans keçirilib.

Əvvəlcə "Naxçıvan" Universitetinin Elmi Kitabxanasında Ulu Öndər Heydər Əliyevin mənalı və şərəfli ömür yolunu, zəngin siyasi fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin inkişafı naminə misilsiz xidmətlər göstərmiş Ümummilli Liderin dahi şəxsiyyət kimi xalqımız qarşısındakı misilsiz xidmətlərindən, Milli Qurtuluş Gününün böyük ictimai, siyasi və tarixi əhəmiyyətindən bəhs edib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, dosent Elman Cəfərli bildirib ki, 30 il bundan öncə xalqımız öz dahi,



vətənpərvər oğlu, qüdrətli siyasi xadim, Ümummilli Liderimiz Heydər Əliyevin böyük zəkası, fədakarlığı nəticəsində ictimai-siyasi böhrandan, vətəndaş müharibəsi təhlükəsindən, separatçılıq meyillərindən xilas olub. 15 İyun isə Azərbaycanın tarixinə ölkəni xilas edən böyük qayıdış kimi şərəflə yazılıb. Bu gün sürətlə inkişaf edən, dünya birliyində öz layiqli yeri və mövqeyi olan Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin şah əseridir.

"Naxçıvan" Universitetinin Turizm işinin təşkili ixtisası üzrə III kurs tələbəsi İbrahim Məmmədov Ulu Öndərin gənclərə göstərdiyi qayğı və diqqətdən, bu siyasi kursun bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb.

Konfrans "Naxçıvan" Universitetinin bir qrup tələbəsinə Yeni Azərbaycan Partiyasına üzvlük vəsiqələrinin təqdim olunması və Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş TEC konfransının yekun mükafatlandırılması ilə davam edib. Tələbələrin ifasında dahi şəxsiyyət Heydər Əliyevə həsr olunmuş şeir və musiqi nömrələri səsləndirilib.

**Xəbərlər şöbəsi**

# Prezident İlham ƏLİYEV: Qurtuluş Günü

*Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın mənganəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.*

***"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında"
Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından***

*15 İyun Milli Qurtuluş Günüdür*

## Xalqımız öz nicatını Naxçıvandan başlanan qurtuluşda – *Ulu Öndər Heydər Əliyevin böyük siyasətə qayıdışında tapdı*



**Ulu öndər Heydər ƏLİYEV:** *Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm.*

*Ötən əsrin 90-cı illərinin əvvəllərində, yenicə müstəqillik qazandığımız bir dövrdə Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslər ölkəni uçurumun bir addımlığına gətirib çıxardı, baş verən siyasi hərc-mərclik xalqımızın sabaha olan ümidlərinin tükənməsinə səbəb oldu. Siyasi və iqtisadi böhran şəraitində yaşayan Azərbaycan xilas yolu gözləyirdi. Həmin vaxt ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvanın vəziyyəti isə daha acınacaqlı idi.*

Azərbaycanın bu ağır vaxtında, 1990-cı ilin iyulun 20-də sovet imperiyasının Azərbaycan xalqına qarşı yönəldilmiş məkrli siyasətinə qarşı cəsarətli və qətiyyətli mübarizələrinə görə davamlı təqib və təhdidlərə məruz qaldığı üçün, xalqının ağır və çətin günlərində onunla birgə olmaq məqsədilə Moskvadan Bakıya, 2 gün sonra isə Naxçıvana gələn Ulu Öndər Heydər Əliyev xalqın əsl xilaskarına çevrildi. Ümummilli Liderimizin Naxçıvana qayıdışı əhali tərəfindən böyük ümid və sevinc hissi ilə qarşılandı. Naxçıvana gəldikdən qısa müddət sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq Ümummilli Lider Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürməklə muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz Ulu Öndərimizin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. 1990-cı ilin 17 noyabrında Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası deputatların böyük təkidi və istəyi nəticəsində dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə öz işinə başladı. Sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı.

Xalqa, Vətənə sədaqətin, qırılmaz tellərlə bağlılığın məntiqi nəticəsi olaraq 1991-ci il sentyabrın 3-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ulu Öndər Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bununla da Azərbaycan tarixində Ümummilli Liderin adı ilə bağlı olan daha bir səhifə açıldı.

Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan Ümummilli Liderimiz real düşmən təcavüzünə məruz qalan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə başladı. 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etdi. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıc nöqtəsi idi.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atılırdı. Ulu Öndər 1992-ci ildə qardaş Türkiyə Cümhuriyyətinə və qonşu İran İslam Respublikasına səfərlər etdi və bu zaman keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair mühüm protokollar imzalandı. Protokollara əsasən hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər quruldu, Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verildi. Eyni zamanda həmin vaxt enerji təhlükəsizliyinin təmin olunması istiqamətində də bir sıra layihələr reallaşdırıldı. Ümummilli Liderimiz Heydər Əliyev öz fəaliyyəti ilə təkcə muxtar respublikada yox, bütövlükdə, Azərbaycan miqyasında ölkəmizin parlaq gələcəyinə olan inam hissini alovlandırmışdı. Azərbaycanın digər regionlarında yaşayan insanlar həmin dövrdə dahi siyasətçiyə teleqramlar, məktublar göndərir, xalqın üzləşdiyi bəlaların məhz Onun müdrik və uzaqgörən siyasəti nəticəsində həll olunacağına inamlarını ifadə edirdilər.

Belə bir vaxtda dahi şəxsiyyətin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı getdikcə bir zərurətə çevrilirdi. Xalq qəti əmin idi ki, ölkəni düşdüyü ağır siyasi böhrandan çıxarmağın, torpaqların itirilməsi təhlükəsindən xilas etməyin yeganə yolu Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışındadır.

Azərbaycanın məhvə sürükləndiyi bir vaxtda xalq yeganə ümid və xilas yolunu Naxçıvandan başlanan qurtuluşda – Ümummilli Liderimiz Heydər Əliyevin böyük siyasətə qayıdışında tapdı. 1993-cü ilin 9 iyununda dahi siyasətçi xalqın təkidli tələbi ilə Bakıya gəldi. Böyük siyasətə yenidən qayıdış yalnız bir amala – xalq və dövlətin üzləşdiyi bəladan qurtarmaq məramına xidmət edirdi.

Tarixə nəzər saldıqda bir daha görərik ki, görkəmli dövlət xadiminin Naxçıvana qayıdışı ölkəmizin həyatında yeni mərhələnin başlanğıcına çevrildi, Naxçıvanda müstəqil dövlət quruculuğu istiqamətində mühüm qərarlar qəbul olundu və ölkəmizin müstəqilliyi yolunda ilk addımlar məhz bu qədim Azərbaycan diyarında atıldı.

Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi 1990-1993-cü illər Azərbaycanın müstəqil dövlət quruculuğu tarixində ən mühüm dövr sayılır. Həmin dövrdə Azərbaycanda baş verən hadisələr ölkəni faktiki olaraq müstəqilliyini itirmək həddinə gətirib çıxarmış, vətəndaş müharibəsi başlamışdı. 1993-cü il iyunun 4-də baş verən Gəncə hadisələri isə qardaş qırğını ilə bərabər, ölkəni real olaraq parçalanmaq təhlükəsi ilə də üz-üzə qoymuşdu. Görkəmli dövlət xadimi Heydər Əliyev məhz belə bir çətin dövrdə xalqın tələbi ilə 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qayıtdı. Bununla da ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyuldu və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etmişdir.

Dahi siyasətçi öz ideyalarını əməli işi ilə reallığa çevirərək qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırdı, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı. Bakı-Tbilisi-Ceyhan, Baki-Tbilisi-Ərzurum kimi nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda atılmış mütərəqqi addımlar kimi tarixə düşdü.

Ulu Öndər Heydər Əliyev həm də müstəqil Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi çağdaş tariximizə möhürünü vurmuşdur. Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskarı kimi Ümummilli Lideri hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanırdı. Xalqımızın dahi oğlunun hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. 1991-1993-cü illərdəki başabəla iqtidarın siyasi uğursuzluqları bir daha təsdiqlədi ki, xalqın inam və etimadına söykənməyən, onun iradəsini, istəyini nəzərə almayan hər hansı siyasi qüvvə Azərbaycan cəmiyyətində uzun müddət duruş gətirə bilməz.

Görkəmli dövlət xadimi ilk olaraq siyasi sabitliyə, milli həmrəyliyə nail oldu, torpaqlarımızın işğalının qarşısı alındı və atəşkəs elan edildi. Azərbaycanda tarixi ənənələrin, dünyəvi dəyərlərin məcmusu olan modern dövlətçilik konsepsiyası həyata keçirildi. Bir vaxtlar Azərbaycanı tanımaq belə istəməyən dünyanın əksər böyük dövlətləri artıq Azərbaycanla, onun rəhbəri ilə hesablaşmalı oldu. Ümummilli Lider uğurlu daxili və xarici siyasət həyata keçirdi, Azərbaycançılıq ideologiyasını dövlət siyasəti kimi müəyyənləşdirdi. Ölkəmizdə dövlət quruculuğu prosesinə başlandı, güclü ordu yaradıldı, ölkənin demokratik prinsiplərini, insanların siyasi hüquq və azadlıqlarının toxunulmazlığını bəyan edən müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul olundu.

Qürurla demək olar ki, Ulu Öndərin bizə əmanət qoyub getdiyi Azərbaycan, onun əbədiyyət qazandığı dövlət müstəqilliyi bu gün etibarlı əllərdədir. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən ötən dövrdə Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeləri daha da möhkəmləndirilmiş, ölkəmizin dünya dövlətləri arasında nüfuzu artmışdır. Azərbaycanın tranzit ölkəyə çevrilməsi bu qədim diyarda siyasi düşüncələrin, elmi fikirlərin, mədəniyyətlərin, dini baxışların dialoqunun baş tutmasını şərtləndirmişdir. Bu gün Azərbaycan bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin nümunəvi ev sahibi və təşkilatçısıdır. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, YUNESKO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır.

Dahi öndər Azərbaycanda dövlət müstəqilliyinin möhkəm təməllərini yaratmış, ölkə başçısı cənab İlham Əliyev isə müstəqil Azərbaycan Respublikasını dünyanın inkişaf etmiş dövlətlərindən biri səviyyəsinə çatdırmışdır. Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafında müstəsna rolu olan "Əsrin müqaviləsi"ni imzalatmaqla respublikanın gələcək inkişafının möhkəm təməlini qoymuşdur. Haqlı olaraq bu müqaviləyə "Heydər Əliyev kontraktı" da deyilir. Prezident cənab İlham Əliyev isə Bakı-Tbilisi-Ceyhan neft magistralını, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini çəkdirməklə müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişafında inqilab yaratmağa nail olmuşdur. Həmin beynəlxalq neft-qaz kəmərlərinin çəkilməsi və işə salınması ilə Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin taleyi həll edilmişdir. Bundan sonra Şahdəniz qaz yataqlarının kəşf edilməsi, TANAP və TAP beynəlxalq magistrallarının çəkilməsi, Azərbaycan qazının Türkiyədən keçməklə Avropaya nəql edilməsi ilə Azərbaycanın iqtisadi inkişafında yeni bir zirvə fəth edilmişdir.

Ulu Öndər müstəqil dövlətimizin ordu quruculuğunun təməllərini atmış, cənab İlham Əliyev Azərbaycan Ordusunu dünyanın əlli ölkəsinin ordusundan biri səviyyəsinə qaldırmışdır.

Əgər Ümummilli Liderimiz 90-cı illərin başlanğıcında I Qarabağ müharibəsini uduzmuş, pərakəndə partizan dəstələrini ləğv edərək müstəqil dövlətin Müdafiə Nazirliyini və onun tabeliyində müxtəlif təyinatlı ordu sistemini yaratmışdırsa, Prezident cənab İlham Əliyev Azərbaycan Ordusunu ən yüksək hərbi texnologiya ilə və peşəkar hərbi kadrlarla təchiz olunmuş, vətənpərvərlik ruhunda tərbiyə edilmiş əsgərlərdən ibarət sivil bir ordu səviyyəsinə çatdırmışdır.

Ulu Öndərin Azərbaycan Respublikasına rəhbərliyi dövründə Horadiz şəhəri və ətrafı ordumuz tərəfindən yağı düşməndən təmizlənmişdir. Bu, Qarabağı hərbi yolla qaytarmağın ilk mühüm sınağı olmuşdur. Qalib Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla həyata keçirilmiş "Dəmir yumruq" əməliyyatı ilə rəşadətli Azərbaycan Ordusu II Qarabağ müharibəsində Ermənistanın təcavüzü nəticəsində düşmənin əlinə keçmiş Azərbaycan torpaqları işğaldan azad edilmişdir. Lələtəpə-Cocuq Mərcanlı qalibiyyət yürüşünün başlanğıcı, Günnüt-Naxçıvan uğurlu davamı, Qarabağ – Şuşa zirvəsi olmuşdur. Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev II Qarabağ Vətən müharibəsini Zəfərlə başa çatdırdıqdan sonra Qarabağ ərazisində Böyük Qayıdış hərəkatına start vermişdir. Prezident cənab İlham Əliyev deyib: ***"Mən son illər ərzində dəfələrlə demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını işğalçılardan azad edəcək və belə də oldu. Dediyim sözlər həyatda öz yerini tutdu və Azərbaycan qurtuluş savaşına başlayaraq, öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi".***

Naxçıvan Muxtar Respublikası da bugünkü dinamik inkişafına məhz Milli Qurtuluş yolundan keçərək nail olmuşdur. Son illər aparılan genişmiqyaslı quruculuq prosesləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirmişdir. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın hərtərəfli inkişaf etmiş qabaqcıl diyarına çevrilmişdir. Əlbəttə, bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir. Bu gün blokada şəraitində olsa da, Naxçıvan yaşayır və inkişaf edir. Bütün bunlar dahi Heydər Əliyev siyasətinin təntənəsidir.

Yaşadığımız, şahidi olduğumuz tarix özü sübut edir ki, Milli Qurtuluş Günü tərəqqi, intibah dövrünə aparan mərhələnin başlanğıcıdır. Xalqımız hər il bu günü ümumxalq bayramı kimi Ümummilli Liderə dərin minnətdarlıq hissi ilə qeyd edir. Elə bunun ifadəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamı bütün xalqımız və Türk dünyası tərəfindən sevinclə qarşılanıb. Bu münasibətlə silsilə tədbirlər keçirilir. Azərbaycanı, onun müstəqilliyini bizə ərməğan etmiş Ulu Öndər bu günümüzün müəllifidir. Ona görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Müasir tariximiz 1993-cü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu Öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətini qəlbində yaşadır və yaşadacaqdır".***

**✍ Gülcamal TAHİROVA**

# Azərbaycan tarixində dönüş nöqtəsi idi

*Qəzet cəmiyyətin güzgüsü, baş verən hadisələri daha dəqiq faktlarla arxivləşdirərək bu gün və gələcək üçün bir aydınlıq, maarifləndirmə mənbəyidir. Bir əsrdən çox yaşı olan “Şərq qapısı” qəzeti də yarandığı bir gündən bu mühüm vəzifəni həyata keçirir. Tarixin ən çətin vaxtlarında belə öz amal və məqsədindən dönməyən qəzetin ən nüfuzlu vaxtları məhz Ümummilli Lider Heydər Əliyevin Naxçıvana rəhbərliyi dövründə olmuşdur. Görkəmli dövlət xadimi Naxçıvana qayıdarkən ilk müsahibəsini də məhz “Şərq qapısı” qəzetinə vermiş, qəzetlə bağlı çox dəyərli fikirlər söyləmişdi.*

2023-cü il “Heydər Əliyev İli”dir

## Qurtuluşa gedən çətin və şərəfli yol

### “Şərq qapısı” qəzetinin salnaməlləşən səhifələrində




Qəzet 1990-1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Naxçıvana, sonrakı dövrlərdə ölkəyə rəhbərliyinin bütün istiqamətlərini işıqlandırmaqla mühüm bir tarixi salnamə funksiyasını yerinə yetirib. Xalqımızın, xüsusilə də Naxçıvan camaatının Ulu Öndərin ətrafında sıx birləşərək müstəqilliyə, eyni zamanda qurtuluşa gedən çətin və şərəfli yolunu “Şərq qapısı” kimi geniş işıqlandıran ikinci bir informasiya vasitəsi olmayıb. Məhz 1993-cü ildə Ulu Öndərə qarşı olan qarayaxmalara, atılan böhtanlara rəğmən naxçıvanlıların dahi lider ətrafında sıx birləşməsi bütün bunların önünə keçmiş, görkəmli dövlət xadimi yenidən rəhbərliyə qayıtmaqla ölkəni gələcək təhlükələrdən sığortalamış, sosial-iqtisadi böhranın, vətəndaş müharibəsinin qarşısını almış, ərazi bütövlüyümüzün qorunub saxlanılması, işğal altında qalan torpaqlarımızın qaytarılması üçün çalışmışdır.

1993-cü ildə Naxçıvanda yaşanan hadisələrə, böyük Qurtuluşa gedən çətin və şərəfli yola “Şərq qapısı” qəzeti vasitəsilə bir nəzər salaq.

O dövrdə ölkədə hakimiyyətdə olan Xalq Cəbhəsinin yarıtmaz fəaliyyəti ölkəni dərin iqtisadi böhrana salmış, torpaqlarımız ard-arda düşmən qüvvələr tərəfindən işğal olunmuşdu. Dövlət çevrilişi cəhdləri müntəzəm hal almış, ölkə vətəndaş müharibəsi meydanına çevrilmişdi. Qəzetin 1993-cü il 6 yanvar tarixli nömrəsində “Naxçıvan Muxtar Respublikasında baş vermiş dövlət çevrilişi cəhdi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il 25 oktyabr tarixli Qərarının yerinə yetirilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qərar qəbul etmiş, qərar Ali Məclisin Sədri Heydər Əliyev tərəfindən imzalanmışdır. Qərarda muxtar respublika Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 1992-ci il oktyabrın 24-də Naxçıvan Xalq Cəbhəsi, onun silahlı qüvvələri tərəfindən işğal olunması dövlət çevrilişinə cəhd kimi qiymətləndirilmiş, bununla əlaqədar əsaslı surətdə istintaq aparılması, günahkarların cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı tapşırıqlar verilmişdir. Həmçinin Xalq Cəbhəsində olan silahların Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvandakı hərbi hissəsinə təhvil verilməsinə çağırış edilmişdir.

Qeyd edək ki, həmin vaxt Naxçıvan hakimiyyətinin Xalq Cəbhəsinin qeyri-hüquqi hərəkətlərinə son qoymaq haqqında dəfələrlə xəbərdarlığı müsbət nəticə verməmiş, bu da haqlı olaraq xalqın etirazına səbəb olmuş, onlar Xalq Cəbhəsinin qeyri-qanuni hərəkətlərini müsbət qarşılamamış, Xalq Cəbhəsinin silahlı dəstələri xalqın təzyiqi altında DİN və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını tərk etməyə məcbur olmuşdular. Xalq Cəbhəsi bundan sonra onsuz da aşağı olan nüfuzunu tamamilə itirmişdi.

Qəzetin 20 yanvar nömrəsində professor Asif Şirəliyevin “Biz hara gedirik” məqaləsində müstəqil, demokratik Azərbaycan dövlətçiliyinin formalaşması üçün möhkəm iqtisadiyyatın yaradılmasının zəruriliyi qeyd olunur. Həmçinin iqtisadiyyatımızın sabitliyinin pozulması, onun fəlakətə yaxınlaşması, iflas təhlükəsində olduğu, bunun həlli üçün bütün idarəetmə işlərində, kadr seçilməsində açıq-aşkar tərəfkeşliyə son qoyulmasının, hər kəsə bacardığı işin tapşırılmasının, idarəetmədə hər bir Vətən övladının iştirak etməsinin və hər kəsin Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və iqtisadi inkişafı naminə cəlb olunmasının əhəmiyyəti qeyd edilirdi...

27 yanvar 1993-cü il tarixli nömrədə “Nə hədələrdən, nə rəzil niyyətlərdən qorxmuram” başlığı altında dərc olunmuş “Nezavisimaya qazeta”nın müxbirinin Ulu Öndər Heydər Əliyevlə müsahibəsi o dövrdə baş verən proseslərin mükəmməl şərhi, təhlili idi. Müxbirin: – Heydər bəy, Siz Azərbaycandakı indiki siyasi vəziyyəti necə təhlil və xarakterizə edirsiniz? – sualına görkəmli dövlət xadimi belə cavab verir: ***“...Ölkənin siyasi həyatında isə bütün dövlət strukturlarında faktiki iqtidarda olan AXC-nin monopoliyası hökm sürür. Halbuki xalq ona bu səlahiyyəti həvalə etməyib. Bütün vəzifələr yeganə prinsip – AXC-yə mənsubiyyət əsasında bölüşdürülür. Özü də nə səriştəyə, nə də professionallığa, hətta adi savada belə heç bir əhəmiyyət verilmir. Bu nəinki səhv, eyni zamanda xalqımızın gələcəyi üçün böyük təhlükəya aparan yoldur”.***

Xalqımız uçuruma gətirən hadisələr yaşandığı vaxtlarda Naxçıvan Xalq Cəbhəsi və Azərbaycan rəhbərliyi tərəfindən Ümummilli Liderin həyatına qarşı terrorçuluq və sui-qəsd cəhdləri olmuşdu. Müxbirin: – Heydər bəy, bir insan kimi həyatınız üçün yaranmış təhlükədən qorxmursunuzmu? – sualına böyük dövlət xadimi belə cavab vermişdi: ***“Xeyr, Sizə bunu tam səmimiyyətlə deyirəm. Mən nə hədələrdən, nə də rəzil niyyətlərdən qorxuram”.*** Görkəmli dövlət xadimi siyasi mübarizənin ağılın və zehnin gücü, professionalluq və nəhayət, müdrikliklə aparılmalı olduğunu qeyd edirdi.

O dövrdə ölkəmiz sosial-iqtisadi böhran içində, siyasi-ictimai vəziyyət olduqca gərgin idi. Xalqımız müharibə şəraitində yaşayır, torpaqlarımızın bir hissəsi düşmən tərəfindən tutulmuş, çoxlu qurban vermişdik. Naxçıvan Muxtar Respublikasında vəziyyət daha dözülməz olmuş, sanki əl çatmaz, ün yetməz bir adada yaşamaq naxçıvanlıların taleyinə yazılmışdı. Ölkəni bu acınacaqlı vəziyyətdən yalnız Allahın xalqımıza bəxş etdiyi böyük siyasi xadim Ümummilli Lider Heydər Əliyev qurtara bilərdi…

Qəzetin 31 mart tarixli nömrəsində Ordubad rayonunun Dəstə kəndindən İsmayıl Əliyevin “Heydər Babaya xitab” adlı şeiri məhz bu dözülməzliyə, ağır şəraitə çarə üçün insanlara bir çağırış idi:

*Heydər baba, uzat nicat əlini,*
*Kəs düşmənin böhtan yayan dilini.*
*Qurtar qandan Azərbaycan elini*
*Xocalını əlimizdən aldılar,*
*Xalqımızı yaman günə saldılar.*

*Heydər baba, qaldır xalqı ayağa,*
*Xalq möhtacdır əyilməyən dayağa*
*Əllərdəki silaha qoy qadağa*
*Silah gərək səngərlərdə atılsın,*
*Erməninin qanı leşə qatılsın.*

*Heydər baba, su çalxanıb durular,*
*Ölkəmizdə əsl dövlət qurular,*
*Xalq birləşər, yumruq kimi bir olar*
*Siz də bizim rəhbərimiz olarsız,*
*Günahkarın qulağını burarsız.*

Bəli, artıq insanlar başa düşürdülər ki, vəziyyətdən çıxış yolu üçün yeganə namizəd Naxçıvanın Ali Məclisinin Sədri Heydər Əliyev idi.

Mayın 10-da dərc edilən “Allah Əliyevi xalqı xilas etmək üçün göndərib” adlı müsahibə isə məhz xalqımızın xilasının, nicatının xalq-Ulu Öndər, Ulu Öndər-xalq birliyində olduğunun təsdiqi idi. “Moskovskiye novosti” qəzetinin icmalçısı Vladimir Yemelyanenkonun: – Naxçıvana qayıtmağa Sizi nə məcbur etdi? – sualına dahi lider belə cavab vermişdi: ***“Mən ona görə qayıtdım ki, ətrafımızda baş verən intəhasız özbaşınalığa dözə bilmirdim. 1990-cı il 20 Yanvar faciəsindən sonra Bakıya qoşun yeridilən günün sabahı mən Moskvada mitinqdə və mətbuat konfransında çıxış edərək dedim ki, bu, Azərbaycan xalqına qarşı törədilən cinayətdir. Bu hadisələrdən sonra mən Moskvada qala bilməzdim. Mən öz xalqımla olmalı idim”.***

İyunun 4-də Gəncədə Surət Hüseynov Xalq Cəbhəsi hökumətinə qarşı qiyam qaldırmışdı. Ölkənin bu cür təhlükələrlə üz-üzə qaldığı bir vaxtda xalq öz Öndərini köməyə çağırdı. ***“Xalq iradəsini bildirib məni çağırarsa, mən onun iradəsinə tabe olacağam”***, – deyən Ümummilli Lider Vətənin ağır vəziyyətinə biganə qala bilməyərək iyunun 9-da Bakıya gəldi. 1993-cü il iyunun 15-də Ümummilli Liderin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisi qərar qəbul etdi. Böyük dövlət xadimi respublikanı ağır, mürəkkəb vəziyyətdən çıxarmağı, Azərbaycan Respublikasının tarixi nailiyyəti olan müstəqilliyi qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özünün əsas vəzifələrindən hesab edirdi. Həmçinin həmin gün Milli Məclisdə çıxışı zamanı Ulu Öndər qəti olaraq demişdir: ***“Azərbaycan Respublikası bundan sonra heç vaxt müstəqilliyini itirməyəcək , heç bir dövlətin tərkibinə daxil olmayacaq və heç bir başqa dövlətin əsarəti altına düşməyəcək”.*** İyunun 23-də keçirilən Milli Məclisin iclasında prezidentin səlahiyyətlərin bütünlüklə Azərbaycan Respublikası Ali Sovetinin Sədrinə verilməsi haqqında qərar qəbul edildi.

Məlum olduğu kimi, ötən əsrin 90-93-cü illərində hakimiyyətdə olanların yarıtmaz fəaliyyəti nəticəsində torpaqlarımız düşmənə təhvil verildi, girov və əsirlərimizin sayı çoxaldı, dövlətçiliyimiz, iqtisadiyyatımız böhran burulğanında itdi. Xalqın etiraz səsi, qəzəbi yüksək idi. Onlar Xalq Cəbhəsinin əlində olan silahları təhvil verməsini, AXC Naxçıvan şöbəsinin fəaliyyətini dayandırmasını, təxribatçılar və cinayətkarların cəzalandırılmasını tələb edir, Ulu Öndər Heydər Əliyevin ətrafında daha sıx birləşməyə çağırırdı. Qəzetin müxtəlif nömrələrində “Nicat yolu birdir”, “Həmənin fikri eynidir”, “Yekdilliklə müdafiə edirlər”, “Hamımız bir səslə”, “Alternativ qaydada, demokratik şəkildə”, “Xilaskara inam olanda”, “Elin sözü əvvəl-axır düz olur”, “Ürəklərdə inam varsa” və digər başlıqlı məqalələrdə naxçıvanlılar Heydər Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi üçün müraciət edirdilər. Onlar xalqın nicat yolunun yalnız Heydər Əliyevin rəhbərliyi altında sonrakı fəaliyyətimizi məqsədyönlü istiqamətdə inkişaf etdirməkdə görürdülər. Qeyd olunurdu ki, əgər Heydər Əliyev prezident seçilərsə, əldən getmiş torpaqlarımızın qaytarılması təmin olunacaq, bərbad olan iqtisadiyyatımız dirçələcək.

Nəhayət, xalqın birliyi, bərabərliyi, yekdil rəyi öz nəticəsini verir və qəzetin 9 oktyabr nömrəsində dərc olunan “Heydər Əliyev Azərbaycanın Prezidentidir” başlıqlı məqalədə də qeyd olunduğu kimi, Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərinin nəticələrinə əsasən xalq 98,84 faiz səslə Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçir. Oktyabrın 10-da Prezident Sarayında Azərbaycanın dövlət başçısının təntənəli andiçmə mərasimi keçirilir və Ulu Öndər əlini Azərbaycan Respublikasının Konstitusiyasına basaraq and içir. Andiçmə mərasimində dediyi kimi, fəaliyyəti boyu Ümummilli Lider biliyini, təcrübəsini, bütün qüvvəsini Azərbaycan xalqının, ölkəmizin rifahına həsr etdi. Azərbaycan Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlindən gələni əsirgəmədi. Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı kimi milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı oldu. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı oldu. Azərbaycan Respublikasına, xalqımıza ləyaqətlə xidmət etdi. Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq oldu və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişaf etməsini təmin etdi.

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *Müasir tariximiz, şanlı tariximiz 1993-cü ildən başlayır. O ildən 2003-cü ilə qədər Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Mütərəqqi Konstitusiya qəbul edilmişdir, ümumi dövlət quruculuğu prosesi başlamışdır, əsaslı siyasi və iqtisadi islahatlar reallaşmışdır, Azərbaycan dünya miqyasında özünü tanıtdıra bilmişdir və beynəlxalq təşkilatlara üzv olmuşdur.*

Ulu Öndər bundan sonrakı mənalı həyatını canı, varlığı qədər sevdiyi Azərbaycanın inkişaf və intibahına həsr etdi. Ölkə daxilində ictimai-siyasi sabitlik təmin edildi, atəşkəs əldə olundu, xalqın dövlətə inamı bərpa edildi, iqtisadi böhranın aradan qaldırılması istiqamətində genişmiqyaslı islahatlar həyata keçirildi, nəticədə, respublikamız dünya dövlətləri arasında öz layiqli yerini tutdu. Görkəmli dövlət xadiminin siyasi kursunu 2003-cü ildən uğurla davam və inkişaf etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində başlıca rol oynayır. Sosial-iqtisadi inkişaf, ordu quruculuğu istiqamətində atılan addımlar uzun illərdir, işğal altında qalan torpaqlarımızın azad olunması ilə nəticələndi. Bu gün Qarabağ və Şərqi Zəngəzur torpaqlarında aparılan genişmiqyaslı tikinti-quruculuq tədbirləri hesabına bir vaxtlar həmin torpaqlardan qaçqın düşən vətəndaşlarımız öz doğma yurdlarına qayıdırlar.

*Bir sözlə, ölkəmizin bütün uğurlarının əsasında məhz Ulu Öndər Heydər Əliyev siyasəti dayanır. Bu siyasət ölkəmizi və xalqımızı işıqlı yollara, daha irəliyə aparır. Prezident cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixdə imzaladığı “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamda deyilir: “Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir”.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Bakı məktəbliləri Naxçıvanda konsert verib



*Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Bakı Şəhər 5 nömrəli Uşaq İncəsənət Məktəbi şagirdlərinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən hesabat konserti keçirilib.*

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “El bilir ki, sən mənimsən” adlı konsert proqramı başlamazdan öncə iştirakçılar məktəbin istedadlı şagirdlərinin rəsm əsərlərindən ibarət sərgiyə baxıblar. Ulu Öndərə, Vətən müharibəsinə, şanlı Zəfərimizə, tarixi və mədəniyyət abidələrinə həsr olunmuş əsərlər, müxtəlif əl işləri maraqla qarşılanıb.

“Qələbə” mahnısı ilə başlayan konsert tamaşaçılarda əsl qələbə ovqatı yaradıb.

Konsertdə Fikrət Əmirov, Niyazi, Qara Qarayev və digər görkəmli bəstəkarlarımızla yanaşı, bir sıra dünya klassiklərinin əsərləri, maraqlı kompozisiyalar, marşlar da ifa edilib.

Respublika və Beynəlxalq müsabiqələr laureatı olan şagirdlərin ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Konsert “Qələbəyə gedən yollar” əsəri ilə başa çatıb.

**Xəbərlər şöbəsi**




*2021-ci ilin 15 iyununda ölkəmizin həyatında tarixi günlərdən və hadisələrdən biri yaşandı. O hadisə ki nəinki ölkə gündəmində, eləcə də ölkəmizdən kənarda baş verən hadisələrə hələ uzun müddət öz siyasi təsirini göstərəcək.*

# Sülhə, davamlı inkişafa və inteqrasiyaya açılan yol – *milli, siyasi, həmrəylik nümunəsi Şuşa Bəyannaməsi*

Tarixdə iz qoyan, böyük dəyişikliklər yaradan mühüm tarixi sənədlər imzalanır ki, onun imzalandığı tarix və ərazi hər zaman xüsusi əhəmiyyət kəsb edir. Çünki illər sonra gələcək nəsillər bu tarixi və ərazini öyrənərkən məsələnin mahiyyətini və əhəmiyyətini daha dərindən dərk edirlər. Söhbət iki qardaş ölkənin, Azərbaycan və Türkiyə münasibətlərinin yeni müstəviyə qalxmasını təsdiq edən sənəddən – Şuşa Bəyannaməsindən gedir. 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhərində imzalanan bu bəyannamə tarixi əhəmiyyətə malik olan müttəfiqlik münasibətlərini bir daha rəsmiləşdirdi. Bu tarixi sənəd siyasi və iqtisadi məsələlər, ticarət münasibətləri, mədəniyyət, təhsil, idman, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizi, müdafiə sənayesi sahəsində əməkdaşlıq, qarşılıqlı hərbi yardım, Zəngəzur dəhlizi kimi mühüm məsələləri özündə əks etdirir. İki dost və qardaş ölkə arasında strateji əməkdaşlığı dərinləşdirən bu tarixi hadisə, eyni zamanda regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunmasına, xüsusilə də Azərbaycanın sərhədlərinin toxunulmazlığına yeni imkanlar yaradacaq. Bir sözlə, Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərinin möhürü, zirvəsi oldu, – desək yanılmarıq. Bu baxımdan Şuşa Bəyannaməsinin siyasi və tarixi əhəmiyyətini izah edən məsələ sənədin imzalanma tarixi, yəni 15 İyun – Milli Qurtuluş Günüdürsə, ikincisi onun Azərbaycanın mədəniyyət paytaxtı olaraq bilinən məkanda – Şuşada imzalanmasıdır. Əgər 30 il öncə 15 iyun tarixində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını Ümummilli Lider Heydər Əliyev aldısa, illər sonra eyni gündə Azərbaycanın torpaqlarını düşmən tapdağından azad edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Şuşa Bəyannaməsini imzaladı.

15 iyun 2021-ci il tarixdə imzalanan Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyətə malikdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün *"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"* kəlamları ilə xarakterizə olunan Azərbaycan Türkiyə münasibətləri bununla öz zirvəsinə yüksəlib və yeni bir mərhələyə qədəm qoyub.

Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkəmizin regional və beynəlxalq rolunu, çəkisini daha da artırır.

Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir.

Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraqdoğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, həmçinin BMT, ATƏT, Avropa Şurası, TDƏŞ, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verirlər.

Sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi də xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulmuşdur.

Şuşa Bəyannaməsində Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modelləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin Silahlı Qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasların keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxil edilmişdir.

Ticarət-iqtisadi münasibətlərə gəlincə, milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf edilməsinə yönəldilmiş səylərin əlaqələndirilməsi şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri ehtiva edir.

Ticari-iqtisadi münasibətlərdə yer alan Zəngəzur dəhlizinin açılması həm də Azərbaycanın tarixi ərazisi olan qədim Zəngəzur torpağına yenidən qayıdışını da təmin edəcəkdir. Bununla bağlı Prezident cənab İlham Əliyev 2021-ci il may ayının 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində deyib: ***"Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır".*** Ümumilikdə isə işğaldan azad olunan torpaqlarda inşa olunan hər bir yol və gələcəkdə icrası nəzərdə tutulan mühüm əhəmiyyətə malik hər bir layihə regionun tranzit və logistik əhəmiyyətini artırmağa, bölgənin inkişafını sürətləndirməyə xidmət edəcəkdir.

Tarixi sənəddə Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, ümumi problemlərlə bağlı birgə addımların atılması, davamlı həmrəylik göstərilməsi, milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsi və qarşılıqlı dəstəyin verilməsi də özünə yer alıb.

Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin saxtalaşdırılması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhü və sabitliyi təhdid etməsi nəzərə alınmaqla, 1915-ci il hadisələri ilə bağlı arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərin qətiyyətlə dəstəklənməsinin vacibliyi xüsusilə vurğulanır.

Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlığ gücləndirilməli, türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə TDƏŞ və əlaqədar qurumlar çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verilməlidir.

Qeyd edək ki, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Əlaqələrin yüksək səviyyəsi, ümumilikdə, regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək bu müharibədə Azərbaycanın yanında olduğunu bildirdi. Bu, gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Xüsusən Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident cənab İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu gün erməni diaspor və lobbi qurumlarının, Ermənistanda revanşist qüvvələrin nə etmək istədiklərindən asılı olmayaraq, Qarabağda böyük sürətlə abadlıq və bərpa işləri gedir. Qarabağa yeni nəfəs gəlir və artıq Şuşa şəhəri uzun illərdən sonra yenidən böyük tədbirlərə, festivallara ev sahibliyi edir. İnanırıq ki, tezliklə Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcəkdir. Bunun üçün isə, ilk növbədə, regionda sülhün, sabitliyin bərqərar olması ən vacib amildir. Təsadüfi deyildir ki, cənab Prezidentin 2022-ci il 5 yanvar tarixli Sərəncamına əsasən ölkəmizdə "Şuşa İli" elan edildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 6 dekabr tarixli Sərəncamı ilə Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib.

Bu gün Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın baş planının hazırlanması, Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtında həyata keçirdiyi kompleks işlərin tərkib hissəsidir.

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün postmüharibə dövrünün reallıqlarını ortaya qoyur və yeni hədəfləri, inkişaf istiqamətlərini müəyyənləşdirir. Qardaş Türkiyə Respublikası ilə imzalanan Şuşa Bəyannaməsi isə Azərbaycanın daha da qüdrətlənməsi üçün əlverişli imkanlar yaradır.

Bir neçə gün əvvəl Azərbaycana tarixi bir səfər – Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə dövlət səfəri gerçəkləşdirildi. Əslində, buna, sadəcə, səfər olaraq baxmamalıyıq. Bildiyimiz kimi, bu gün Şuşa Bəyannaməsinin imzalanmasından iki il ötür. Səfər zamanı, Şuşa Bəyannaməsinin ikinci ilində Türkiyə və Azərbaycan münasibətlərinin çatdığı səviyyə, münasibətlərin daha da inkişaf etdirilməsi əsas müzakirə mövzusu oldu. Cənab Ərdoğanın səfəri bir daha onu göstərir ki, Azərbaycan Türkiyə münasibətləri nümunəvidir, strateji xarakter daşıyır. Xalqlarımız, dövlətlərimiz və dövlət başçıları dost, qardaş münasibətindədirlər. Türkiyə Prezidentinin ilk səfərinə Azərbaycandan başlaması həm də Azərbaycan və Türkiyəyə qərəzli mövqedə dayanan dövlətlər üçün də ismarışdır: Azərbaycan və Türkiyə qardaşlığı əbədidir, heç kim bizim aramıza girə bilməz. Türkiyə Azərbaycanı heç vaxt yalqız qoymaz. Eyni münasibətləri Türkiyə Azərbaycandan da görməkdədir. Bu, bir çox real hadisələrdə öz əksini tapıb. Xüsusi vurğulamaq lazımdır ki, Türkiyə İkinci Qarabağ müharibəsinin ilk günlərində Azərbaycanın yanında oldu. Ərdoğan müharibənin ilk vaxtlarında belə bir açıqlama vermişdi ki, Azərbaycan Türkiyənin qırmızı xəttidir və kim o xətti keçərsə, qarşısında Türkiyəni görəcək. Eyni zamanda Türkiyədə baş verən dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılmasında Azərbaycan da öz töhfələrini verdi. Bu reallıqlar fonunda – Türkiyə Prezidentinin ilk səfərini Azərbaycana etməsi bütün münasibətlərin məntiqindən doğan hadisədir.

Cənab Ərdoğanın ölkəmizə səfəri çərçivəsində Şuşa Bəyannaməsində də öz əksini tapan Zəngəzur dəhlizi məsələsinə toxunan ölkə Prezidenti cənab İlham Əliyev bir daha bəyan edərək dedi: ***"Hər halda biz bu istiqamətdə öz səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə iş birliyi məsələlərinə də müsbət təsir göstərəcək".***

Şübhəsiz ki, tarixə əsaslanan bu mühüm sənədin imzalanması ilə Azərbaycan ilə Türkiyə arasında siyasi, sosial-iqtisadi əməkdaşlıq özünün yeni mərhələsinə daxil olub. Bu bəyannamə, eyni zamanda 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarını reallaşdırmaq istiqamətində önəmli addımlar atan iki qardaş ölkənin sülhə, əmin-amanlığa sadiq qaldığını göstərdi. Başqa sözlə, Azərbaycan və Türkiyə bütün potensial gücünü bəyannamədən irəli gələn vəzifələrin icrasına yönəltməklə Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədini qarşıya əsas vəzifə kimi qoydu.

*Bütövlükdə, son iki ildə bəyannamədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşməsinə, regional təhlükəsizliyə və təhlükəsizliyə xidmət etməklə yanaşı, Azərbaycanın və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir.*

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru***

## Təlim keçirilib



Hüquq və İnsan Haqları İnstitutu tərəfindən Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsində təsbit edilən "Azadlıq və şəxsi toxunulmazlıq hüququ" mövzusunda keçirilən təlimdə Naxçıvan Muxtar Respublikası Daxili İşləri Nazirliyinin İstintaq və Təhqiqat Xidmətinin müstəntiq və təhqiqatçıları iştirak ediblər.

Təlimdə Hüquq və İnsan Haqları İnstitutu İdarə Heyətinin sədri Məhəmməd Quluzadə institutun fəaliyyəti və məqsədləri barədə məlumat verib. Sonra təlimə start verilib.

İnstitutun eksperti Vəfaddin İbayevin təqdimatında iştirakçılar "Azərbaycan ədalət mühakiməsi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 20 illik baxış bucağında", "Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsi" mövzularında məlumatlandırılıb.

İnstitutun İdarə Heyəti sədrinin müavini Natəvan Rüstəmova isə təqdimatında "Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsi və dövlətin vəzifələri", "Azadlıq və toxunulmazlıq hüququnun məhdudlaşdırılması", "Avropa İnsan hüquqları Konvensiyasının 5-ci maddəsi üzrə Azərbaycana qarşı çıxarılan qərarlarda ən çox tanınan pozuntular" mövzularında ətraflı məlumat verilib.

Təlim çərçivəsində Hüquq və İnsan Haqları İnstitutunun İnsan hüquqları üzrə təlim ekspertiza şöbəsinin müdiri Vüsalə Muradxanlının aparıcılığı ilə iştirakçılardan ibarət qruplar arasında 5-ci maddə üzrə təhlil işinin aparılması təşkil olunub, qrupların təqdimatları dinlənilib, birgə müzakirələr aparılıb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

**Xəbərlər şöbəsi**

# “Məzun-2023” adlı tədbir keçirilib



Naxçıvan Müəllimlər İnstitutunda Məzun gününə həsr edilmiş tədbir keçirilib. Əvvəlcə institutun professor-müəllim heyəti və məzunlar Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan heykəli önünə gül dəstələri qoyub, sonsuz ehtiramlarını bildiriblər.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi yad edilib, sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov dahi şəxsiyyətin 100 illiyi münasibətilə keçirilən silsilə tədbirlərdən danışıb. Rektor qeyd edib ki, 23 illik tarixə malik Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyətini günün tələbləri səviyyəsində qurması ölkəmizdə təhsil sahəsində aparılan məqsədyönlü siyasətin nəticəsidir. Hər il Naxçıvan Müəllimlər İnstitutunun maddi-texniki bazası, kadr potensialı artırılmış, burada yeni ixtisaslar üzrə kadr hazırlığına başlanılmışdır. Hazırda 1400-dən artıq tələbə kontingenti olan institutda 15 ixtisas üzrə bakalavr, 4 ixtisas üzrə magistr, 5 ixtisas üzrə doktorantura hazırlığı aparılır və yeni tədris ilindən əlavə Korreksiyaedici təlim ixtisası üzrə də kadr hazırlığına başlanılacaq. Həmçinin institutun nəzdində Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 2 istiqamət üzrə fəlsəfə doktorluğu müdafiə etmək üçün Dissertasiya Şurası da fəaliyyət göstərir. Vurğulanıb ki, Naxçıvan Müəllimlər İnstitutunun bu il 11 ixtisas üzrə 337 bakalavr, 4 ixtisas üzrə 39 magistr tələbəsi məzun olur.

Bildirilib ki, pedaqoji kadr hazırlayan təhsil müəssisəsinin bugünkü məqsədi müasir kompetensiyalara cavab verə bilən, özünü hər sahədə mükəmməl səviyyədə doğrultmağı bacaran, əsl vətənpərvər şəxsiyyətlər formalaşdırmaqdır. Bu istiqamətdə institutda təhsil alan və məzun olan hər bir gəncin üzərinə böyük məsuliyyət düşür.

Ali təhsil illərinin insan həyatının ən gözəl və unudulmaz dövrü olduğunu vurğulayan rektor əlamətdar ildə məzun olmaları münasibətilə tələbələri, onların valideynlərini təbrik edib, uğurlar arzulayıb.

Sonra rektor ali təhsil ocağında bu il bakalavr səviyyəsi üzrə ixtisaslardan birinin – İngilis dili müəllimliyinin ilk buraxılışı olduğunu, bu əlamətdar hadisənin “Heydər Əliyev İli”nə təsadüf etdiyini vurğulayıb. Qeyd olunub ki, bu münasibətlə institutun Xarici dillər və tədrisi metodikası kafedrasının müəllimləri – Sevda Hacəliyeva, Bəyim Tarverdiyeva və İngilis dili müəllimliyi ixtisasının məzunları olacaq tələbələrimiz birlikdə “Heydər Əliyev ilinin məzunlarıyıq” adlı kitab-albom hazırlayıblar.

İnstitutun prorektoru Həbibə Allahverdiyeva, elmi katib Qurban Qurbanlı, fakültə dekanları Samirə Həsənova və Rövşən Vəliyev, Tədris şöbəsinin müdiri Əhruz Mahmudova məzunları təbrik edib, onlara gələcək fəaliyyətləri ilə bağlı arzularını çatdırıblar.

Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə V kurs tələbəsi Aysun Kərimova məzunlar adından çıxış edərək göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbir bədii hissə ilə davam edib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

# Kövrək və sevincli anların bir arada yaşandığı gün – Məzun günü





Bir millətin, cəmiyyətin, xalqın parlaq gələcəyini, tərəqqisini təşkil edən təhsildir. İnkişaf etmiş və etməkdə olan, yüksəliş dövrünü yaşayan hər bir dövlətin bünövrəsinin möhkəmliyi məhz təhsildən asılıdır. Təhsili isə bizə məktəb verir. Bizi həyatla tanış edən, bir şəxsiyyət kimi formalaşdıran məktəb bizim ikinci evimizdir. Ömrümüzün ən mənalı illəri olur məktəb illəri. Əlifbanı öyrənməklə qədəm qoyduğumuz məktəbi Məzun günü ilə bitiririk. Məzun günü və ya Son zəng bayramı isə ölkəmizdə, təhsil ocaqlarında böyük təmtəraqla keçirilir. Tələbəliyə addım atan məzunlar həm 11 ilin həsrətini, həm də arzuladıqları maraqlı tələbəlik həyatına qovuşacaqlarının sevincini yaşayırlar. Özüm də bu hissləri yaşamışam. İllərlə bir masa arxasında əyləşərək elmlərin ilkin sirlərinə yiyələnməyimizdə mühüm yer tutan müəllimlərimizdən, 11 il bir yerdə təhsil aldığımız sinif yoldaşlarımdan ayrılmaq çox çətin olur. Bu ayrılığı daha yaddaqalan edən isə son zəngdir. Hər il, eyni ay, eyni gündə məzun sözünün mənasını dərk edən hər kəs xəyalən öz məzun olduğu vaxta geri qayıdır, bir anlıq o şirin xatirələri yada salır... Azərbaycan Respublikasının Dövlət Himni səslənir... İllərlə valideyn kimi əziyyətimizi çəkən dəyərli müəllimlərimizin çıxışı ilə tədbirlər başlanır... Söz musiqiyə, nəğməyə verilən zaman isə gül-çiçək yağışına bürünmüş məktəb həyətindəki şənlik əsrarəngiz gözəlliyə çevrilir. Son zəng ərəfəsində duyğulu anlar yaşayan müəllimlər, məzunlar və onların valideynləri bu kövrək, bir o qədər də sevincli dəqiqələrdə zəngin ovqata köklənirlər. Unudulmaz gün üçün toplaşanlar arasında müəllimlər məzunlara könül dolusu uğurlar arzulayıb, məktəbdə ilk kövrək addımlarını atan birincilərə mübarək qədəmlər, bol uğurlar diləyirlər. Məzunlar üçün son zəng çalınır, onların yeni həyat yolu başlayır. Sabahımız, gələcəyimiz olan bugünkü məzunlar, siz Azərbaycanın işıqlı gələcəyisiniz. Bu yolda hər biriniz üçün qayğılı-qayğısız, rəngarəng həyat yolu, ölkəmizin ümid bəslədiyi layiqli vətəndaş kimi ömrünüzün yeni mərhələsinə qədəm qoyursunuz. Bu hal sevindiricidir, ümidvericidir, qürurvericidir.

*Bu gün ölkəmizdə 101 915 şagird məzun olur. Onların qarşısında yeni üfüqlər açılır. “Şərq qapısı” qəzeti olaraq məzunları təbrik edir, gələcək həyatlarında uğurlar arzu edirik.*

**Süreyya QƏDİMƏLİYEVA**

# Muxtar respublikada yanvar-may ayları ərzində 2 mindən artıq abonent genişzolaqlı internetlə təmin edilib

Muxtar respublikada müasir texnologiyaların tətbiq edilməsi nəticəsində telekommunikasiya xidmətlərinin əhatə dairəsi artırılır, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqət artırılır, telefon, genişzolaqlı internet və digər müasir telekommunikasiya xidmətlərinin müasir səviyyədə təşkili istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Belə ki, cari ilin yanvar-may ayları ərzində muxtar respublikada 733 abonent yeni stasionar telefon xətti ilə, 2179 abonent ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə təmin olunub. GPON (Gigabyte Passive Optical Network–Qiqabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyası əsasında həyata keçirilən “Evədək optika” layihəsi çərçivəsində 45 abonentin mənzilinə isə fiber-optik xətlər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb, istismar müddəti ərzində fiber-optik xətlərdə yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib.

Artan tələbat fonunda cari ilin yanvar ayında Naxçıvan şəhərinin Qaraxanbəyli, Ordubad rayonunun Aza, Kəngərli rayonunun Qarabağlar, Culfa rayonunun Bənəniyar, Yaycı, Ərəzin kəndlərində və rayon mərkəzində istismarda olan avtomat telefon stansiyalarının internet tutumları da artırılıb ki, nəticədə, 550-dən artıq istifadəçinin internet xidmətlərinə olan tələbatının ödənilməsinə şərait yaradılıb.

Həmçinin hesabat dövründə rabitə və internet xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi, internet verilişində qırılmaların qarşısının alınması məqsədilə evlərdə monitorinqlər aparılıb, yaranmış nasazlıqlar operativ olaraq aradan qaldırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasında fitosanitar vəziyyətin müəyyənləşdirilməsi məqsədilə Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında monitorinqlər davam etdirilir.*

# Fitosanitar vəziyyətin müəyyənləşdirilməsi istiqamətində monitorinqlər davam etdirilir



Monitorinqlərə cəlb olunan mütəxəssislər tərəfindən yaşıllıq zolaqlarına, meyvə və üzüm bağlarına, həyətyanı sahələrdə olan meyvə ağaclarına və əkin sahələrinə baxış keçirilir. Fitosanitar vəziyyətin araşdırılması zamanı yaşayış məntəqələrində mövcud bitki və bitkiçilik məhsullarında bir sıra xəstəlik və zərərvericilər aşkarlanmışdır. Belə ki, ağaclarda mənənə və qabıqaltı qurdların, cəviz ağaclarının yarpaqlarında fır gənəciyinin, alma və heyva ağaclarında yarpaq yanıqlığının, üzüm bağlarında mildium və xlorozun olduğu müşahidə edilib. Aşkarlanan xəstəlik və zərərvericilər qeydiyyata alınıb və onlara qarşı mübarizə tədbirlərinin aparılması istiqamətində maarifləndirmə tədbirləri görülüb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# Maarifləndirici tədbir olub

*Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə arxiv işi ilə bağlı maarifləndirici tədbir keçirilib.*

Tədbirdə “İdarə arxivlərində arxiv fondu sənədlərinin təşkili” mövzusunda çıxış edən Naxçıvan Şəhər Dövlət Arxivinin müdiri Əbülfəz Məhərrəmov bildirib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin illik tədbirlər planına uyğun olaraq kargüzarlıq və idarə arxiv işçilərinin arxiv işi sahəsi üzrə nəzəri və praktiki bacarıqlarının artırılması məqsədilə idarənin əməkdaşları tərəfindən Şərur, Babək, Sədərək, Ordubad, Culfa, Kəngərli rayonlarında maarifləndirici tədbirlər keçirilmişdir.

Əbülfəz Məhərrəmov idarə arxivinin vəzifə və funksiyaları, sənədlərin mühafizə qaydaları, icrası başa çatmış sənədlərin struktur bölmələrdən idarə arxivinə qəbulu, sənədlərin struktur, xronoloji, funksional, nominal, korrespondensiyalar, coğrafi və digər əlamətlər üzrə sistemləşdirilməsi, işlərin nomenklatur siyahısının tərtibi, daimi, uzun müddət, müvəqqəti və şəxsi heyət üzrə saxlanılan sənədlərin siyahılarının hazırlanması qaydaları ilə bağlı məlumat verib.

“Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin baş məsləhətçisi Cəfər Məmmədhəsənov tərəfindən milli arxiv fondu sənədlərinin idarə arxivlərində müvəqqəti mühafizə müddətləri, idarə, təşkilatlarda ekspert komissiyalarının yaradılması, vəzifə və funksiyaları, sənədlərin elmi və əməli dəyərinin ekspertizasının keçirilməsi və ekspertizanın nəticələrinin rəsmiləşdirilməsi qaydaları, sənədlərin müvəqqəti mühafizə müddətləri başa çatdıqdan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 24 may tarixli Qərarı ilə təsdiq edilmiş “Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası”na uyğun daimi dövlət mühafizəsinə təhvil verilməsi barədə danışıb.

**Xəbərlər şöbəsi**

# Xilasedici dalğıclar üçün təlim



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən “Heydər Əliyev İli” çərçivəsində xilasedici dalğıcların peşə hazırlığının artırılması və su hövzələrində insanların təhlükəsiz istirahətini təmin etmək məqsədilə təlim keçirilib.

Təlimin keçirilməsində əsas məqsəd xilasedicilərin suda boğulma halları ilə bağlı xilasetmə əməliyyatları, habelə ilkin yardımın göstərilməsi üzrə praktiki vərdişlərinin daha da təkmilləşdirilməsi olub.

Təlimin planına uyğun şəkildə Uzunoba Su Anbarında “şərti” olaraq 3 nəfərin suda batması ilə bağlı daxil olan məlumat əsasında şəxsi heyət hadisə yerinə cəlb olunub. Ərazinin vizual kəşfiyyatı aparıldıqdan sonra dalğıc siqnallarının, eləcə də dalğıclar arasında vizual rabitə siqnalları diqqətə çatdırılıb, yardımçı vasitələrin köməyi ilə xilasetmə işlərinin səmərəli təşkil olunması şəxsi heyətə aşılanıb.

Hadisə yerində heyətlərin fəaliyyətini təmin etmək üçün xilasedici və avarlı-motorlu qayıqlar, skuter, tənəffüs aparatları, təminedici dalğıc avadanlıqları, ilk tibbi yardım vasitələri və digər vasitələr cəlb edilib.

Təlimin taktiki tapşırığına uyğun olaraq “şərti” suda batan vətəndaşlar axtarış-xilasetmə heyətləri tərəfindən xilas olunaraq aidiyyəti üzrə təhvil verilib. Zərərçəkənlərə ilkin tibbi yardım göstərilib və tibb məntəqəsinə təxliyə olunub.

Sonda xilasedici dalğıcların ən yaxşı dərinə enmə, 100 metr məsafəyə uzununa üzmə, qayıq sürücüsü və ən yaxşı suçəkmə heyəti uğrunda yarış da keçirilib. Qaliblərə Fəxri fərmanlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


**İtmişdir**

Şərur rayonunun Dizə kəndində yaşamış Qənbərov Musa İbrahim oğlunun adına verilmiş JN-214A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çomaxtur kənd sakini Hüseynova Şərəbanı Hilal qızının adına olan 102013005512 reyestr nömrəli torpaq sahəsinin plan-ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Məmmədov Əli Rza oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 384